

**Cəmiyyətin həssas və kövrək zümrəsi kimi həmişə yüksək qayğı və nəvazişlə əhatə olunan uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi zərurəti müasir dövrdə hər bir dövlətin üzərinə uşaq hüquqlarının müdafiəsi ilə bağlı yeni vəzifələr qoyur.**

# Virtual məkanda uşaq hüquqlarının etibarlı müdafiəsi

İnsan hüquqlarını demokratik inkişafın ayrılmaz hissəsi, bəşəriyyətin ədalətli cəmiyyətə qovuşmaq idealının ali təzahürü, vətəndaş cəmiyyətinin yetkinliyinin əsas meyarı kimi qəbul edən hər bir dövlət sağlam gələcəyi naminə körpələrin yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmlərinin yaradılması isə, ilk növbədə onların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkilini nəzərdə tutur.

Uşaqların qayğılarına, problemlərinə beynəlxalq səviyyədə də xüsusi diqqət yetirilir. 1950-ci ildən başlayaraq hər ilin 1 iyun tarixi beynəlxalq səviyyədə "Uşaqların müdafiəsi günü" kimi qeyd olunur. Bu əlamətdar gündə, ilk növbədə, uşaqların söz, dini etiqad azadlığı, təhsil, sağlamlıq, istirahət və əyləncə, fiziki və psixoloji zorakılıqdan, istismardan qorunmaq kimi hüquqları böyüklərin diqqətinə çatdırılır. Uşaqların müdafiəsi günündə bütün dünyanın diqqətini cəmiyyətin bu kövrək təbəqəsinə cəlb etmək üçün müxtəlif tədbirlər keçirilir.

2006-cı ildən başlayaraq hər il may ayının 17-si Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti günü kimi qeyd olunur. Hər il bu əlamətdar gün informasiya cəmiyyətinin aktual məsələlərindən birinə həsr edilir. Bu ilki Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti günü də virtual məkanda uşaqların təhlükəsizliyi mövzusuna həsr olunmuşdu. Burada məqsəd beynəlxalq ictimaiyyətin diqqətini uşaqların İnternetdən təhlükəsiz istifadəsinin təmin olunmasına yönəltmək idi.

Uşaq hüquqlarının müdafiəsi, onların normal sosial-mənəvi mühitin hökm sürdüyü cəmiyyətdə layiqli insan kimi yetişməsi, zəruri ehtiyaclarının dolğun şəkildə ödənməsi, azyaşlı körpə və yeniyetmələrin zəngin daxili potensialının, dünyagörüşünün formalaşmasına imkan verən yaradıcı atmosferin formalaşdırılması son 15 ildə Azərbaycan Respublikasında həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməklə, özündə yüksək humanist dəyərləri ehtiva etmişdir. Ümummilli lider Heydər Əliyev müstəqil respublikamıza rəhbərliyi dövründə uşaqlara özünün saf mənəvi dünyasından qaynaqlanan yüksək məhəbbətlə yanaşmış, onlarla sıx təmasda olmuş, cəmiyyətin bu kövrək hissəsinin ahəngdar inkişafının təmin edilməsinə çalışmışdır. 1993-cü ildən bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmiş, respublikamız uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə, o cümlədən 1994-cü ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuş, ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Uşaq hüquqları haqqında" (1998), habelə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" (1999) Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. "Uşaq hüquqları haqqında" qanuna əsasən, respublikamızda uşaq hüquqları sahəsində dövlət siyasətinin əsas istiqamətləri uşaq hüquqlarının etibarlı təmin edilməsindən, uşaqların sağlam mühitdə tərbiyə olunması və yaşayışı üçün normal şəraitin yaradılmasından, valideyn himayəsindən məhrum olan körpələrin 18 yaşınadək dövlət himayəsinə götürülməsindən və s. ibarətdir.

### Sabahkı gəncliyə bu gündən qayğı

Humanizmə və yüksək insani dəyərlərə hörmət prinsipinə əsaslanan bu siyasəti son beş ildə dövrün tələbləri səviyyəsində davam etdirərək zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uşaqların cəmiyyətin və dövlətin yüksək qayğısı ilə əhatə olunmasına çalışır. Şübhəsiz, yalnız təhsilli, savadlı, intellektual səviyyəli və ictimai həyatda fəal olan uşaqlar sabahın layiqli gəncliyi kimi dövlətə və xalqa xidmət göstərə bilər. Bu reallığı düzgün dəyərləndirən dövlət başçısı yaxın gələcəyin vətənpərvər, yüksək zəkalı, intellektual gəncliyi kimi görmək istədiyi uşaqların firavan həyat səviyyəsinin, təlim-tərbiyəsinin, fiziki-mənəvi sağlamlığının yüksək səviyyədə təmini istiqamətində sistemli və ardıcıl siyasət həyata keçirir. Körpə, uşaq və yeniyetmələrin əsrlərin sınağından çıxmış zəngin milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz əsasında, vətənpərvər ruhda tərbiyəsi, qabaqcıl biliklərə, yaradıcı düşüncə tərzinə malik olması, informasiya-kommunikasiya texnologiyalarını dərindən mənimsəməsi, idmanla və bədən tərbiyəsi ilə məşğul olması məsələləri də bu siyasətin başlıca qayəsini təşkil edir. Ölkənin gələcəyini yalnız respublikamızın zəngin təbii sərvətlərinə deyil, eyni zamanda, intellektual insan kapitalına bağlayan cənab İlham Əliyev məktəbəqədər təhsil müəssisələrində, sonrakı mərhələdə isə ümumtəhsil məktəblərində uşaqlara lazımi bilik və vərdişlərin aşılanmasını, onların cəmiyyət üçün layiqli vətəndaş və şəxsiyyət kimi yetişdirilməsini vacib sayır.

### "Uşaq ili" uşaqlara yüksək diqqət tələb edir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi respublikamızda uşaq hüquqları sahəsində həyata keçirilən dövlət siyasətinin ardıcıl və məqsədyönlü xarakter daşıdığını, praktik fəaliyyətə əsaslandığını bir daha təsdiqləyir. Sərəncam uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi daşıyır.

Qısa müddətdə hazırlanan proqram Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "2009-cu il 18 fevral tarixli "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" sərəncamı ilə qüvvəyə minmişdir. Tədbirlər planında Azərbaycan uşaqları haqqında məlumat bankının və İnternet saytının, xüsusi portalın yaradılması, müasir ailə modelinə dair müvafiq tövsiyələrin hazırlanması, respublika uşaq yaradıcılıq festivalının, habelə Beynəlxalq Bakı uşaq rəsm müsabiqəsinin və "Şərq-Qərb" beynəlxalq uşaq rəqs festivalının keçirilməsi, BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası ilə bağlı maarifləndirmə işinin gücləndirilməsi, uşaqların intellektual inkişafına, onların vətənpərvərlik, milli-mənəvi dəyərlərin qo-

runmasına və tolerantlıq ruhunda tərbiyə edilməsinə yönəldilmiş müxtəlif tədbirlərin təşkil edilməsi, xaricdə yaşayan azərbaycanlı uşaqlara ana dilinin öyrədilməsi istiqamətində tədbirlərin görülməsi, "Uşaq ili" ilə bağlı yeni teatr tamaşalarının hazırlanması, dövlət uşaq müəssisələrində tamaşaların və konsert proqramlarının təşkili kimi mühüm məsələlər nəzərdə tutulur.

Respublikamızda elm və təhsilin davamlı inkişafında, uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən çoxşaxəli təşəbbüslərin uğurla reallaşdırılmasında Heydər Əliyev Fondu da öz sözünü deyir. Fondun təhsil və səhiyyənin bir sıra problemlərinin həlli, yeni məktəblərin inşası, körpələr evi və internat məktəblərinin əsaslı təmiri və yenidən qurulması prosesində yaxından iştirakı Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi əsasında ötən 5 ildə respublikanın ən müxtəlif bölgələrində 237 müasir tipli orta məktəb inşa olunaraq istifadəyə verilmiş, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 40-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, "Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi", "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi də fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır.

Respublikanın dinamik sosial-iqtisadi inkişafı, vətəndaşların rifah halında, eyni zamanda, siyasi və hüquqi düşüncə tərzində kardinal dəyişikliklərin baş verməsi uşaq hüquqlarına konstitusion təminatın gücləndirilməsini də hazırkı mərhələdə aktual məsələ kimi gündəliyə gətirmişdir. Ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş "Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi haqqında" Referendum Aktında Əsas Qanunun 17-ci maddəsinə edilən əlavələr də uşaq hüquqlarına hüquqi təminat mexanizmlərini təkmilləşdirmək, bu sahədə yeni qəbul olunmuş qanun və digər normativ-hüquqi aktlara konstitusion status vermək, dövlətin bu sahədə üzərinə düşən vəzifələri konkretləşdirmək məqsədi daşıyır. Bu əlavələr valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlara dövlət himayəsinin göstərilməsini nəzərdə tutmaqla, uşaqların onların həyatına, sağlamlığına və mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb olunmasını qadağan edir. Konstitusiyanın 17-ci maddəsinə edilən digər əlavəyə görə, 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Konstitusiya islahatları uşaq hüquqlarının qorunmasının müdafiəsində təkcə dövlətin deyil, ümumən, hər bir vətəndaşın məsuliyyətini artırmaqla, onların dövlət üçün layiqli vətəndaş kimi formalaşmasına xidmət edir.

## Uşaq hüquqlarının etibarlı müdafiə sistemi

İnkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, uşaq problemlərinin həllinin hər hansı bir dövlət qurumu çərçivəsində məhdudlaşdırılması məsələyə adekvat yanaşma deyildir. Uşaqların təhsili, sağlamlığı, sosial müdafiəsi, istirahəti, yaradıcılıq potensialının aşkarlanması kimi mühüm istiqamətlər cəmiyyətin bütün təbəqələrinin üzərinə məsuliyyət qoyur. Dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti təsisatları, həmkarlar ittifaqları, elmi-tədqiqat institutları, biznes strukturları, habelə kütləvi informasiya vasitələri də respublikada uşaq siyasətinin daha səmərəli və dolğun həyata keçirilməsinə yaxından kömək göstərməli, ictimai diqqəti uşaq hüquqlarına yönəltməyə çalışmalıdırlar. Cəmiyyətin ən kövrək, həssas təbəqəsi olan körpələrə hər bir vətəndaşın diqqət və qayğısı, sevgisi lazımdır. Hər bir valideyn uşağına nəvaziş və qayğı göstərməli, onun cəmiyyətə layiq insan kimi yetişməsi üçün əlindən gələni əsirgəməməlidir.

Milli mədəniyyətin, mental ənənələrin assimilyasiyaya, yad təsirlərə məruz qaldığı qloballaşma əsrində uşaqların milli-mənəvi dəyərlər əsasında düzgün tərbiyə olunması, sağlam əxlaqi mühitdə yetişməsi, kamil dünyagörüşünün formalaşması da aktual məsələlərdən biridir. Müasir dünyanı təhdid edən qlobal cinayətlər sırasında uşaqların sağlamlığına, mənəviyyatına zidd əqli və fiziki əməyə, habelə narkotik vasitələrə, narkobiznesə, insan alverinə, terrorizmə cəlb olunması, daxili orqanların transplantasiyası geniş yer tutur. Getdikcə transmilli xarakter alaraq daha geniş coğrafi arealı əhatə edən bu cinayətlər uşaq problemlərinə yeni dünya nizamının acı reallıqları kontekstindən yanaşılmasını, hər addımda köməyə ehtiyac duyan körpələrin hüquqlarının bütün səviyyələrdə qorunmasını obyektiv zərurətə çevirir.

Son 10 ildə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının hərtərəfli tətbiqi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, kompüterləşmənin geniş vüsət alması, İnternetin keyfiyyətinin yüksəldilməsi uşaq hüquqlarının müdafiəsi sahəsində yeni imkanlar açmışdır. Qloballaşmanın, virtual məkanın cəmiyyətə gətirdiyi yeni reallıqlar uşaqların sağlam ruhda, yüksək milli-mənəvi və ümumbəşəri humanist dəyərlər əsasında təlim-tərbiyəsinə də yeni baxış tələb edir. Dövlətlər arasındakı sərhədlərin tədricən aradan qalxdığı, ortaq qlobal mədəniyyətin formalaşdığı hazırkı dövrdə uşaqların milli ruhda tərbiyəsi, tarixi ənənələrinə, soykökünə bağlanması çətinlik yaradır. Uşaqlarla bağlı bu və digər məsələlərin həlli baxımından informasiya-kommunikasiya texnologiyalarının, İnternetin imkanlarından geniş istifadə olunması son dərəcə zəruridir.

## "İnternet düşərgə"lərin yaradılması obyektiv zərurətdir

Hazırda dünya üzrə İnternet istifadəçilərinin sayı təxminən 1,5 milyard nəfər təşkil edir. "Mikrosoft" şirkətinin açıqladığı statistik məlumatlara görə, bu istifadəçilərin 50 faizindən çoxu 8-15 yaşındadır. Məhz buna görə də müasir dövrdə uşaq problemlərinin həlli baxımından vacib məsələlərdən biri də uşaqların virtual məkanda hüquqlarının qorunmasıdır. Təcrübə göstərir ki, bütün dünya ölkələrində uşaq və yeniyetmələr virtual məkanın imkanlarından istifadə zamanı öz dünyagörüşünə, mənəviyyatına zidd olan informasiyalarla qarşılaşır, nəticədə mənəvi-psixoloji sarsıntılara məruz qalırlar. Hazırda bu problem bütün dünya dövlətlərini düşündürdüyündən, uşaq hüquqlarının virtual məkanda qorunması ilə bağlı müxtəlif təkliflər, ideyalar irəli sürülür. 2008-ci il noyabrın 12-13-də BMT-nin Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən Qlobal informasiya təhlükəsizliyi üzrə xüsusi proqramın qəbulu da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Proqramın məqsədi dünya ictimaiyyətinin diqqətini informasiya təhlükəsizliyinə cəlb etməkdir. Proqram çərçivəsində uşaqların virtual məkanda mühafizəsini gücləndirmək üçün mühüm müddəalar öz əksini tapmışdır. 2009-cu ildə isə BMT təşkilatçılığı ilə virtual mühitdə usaq hüquqlarının müdafiəsi üzrə ümumdünya konqresinin keçirilməsi nəzərdə tutulur. Tədbirdə uşaqların virtual məkanla bağlı problemlərinin həllinə xidmət edən zəruri hüquqi bazanın yaradılması, ayrı-ayrı dövlətlərin bu sahədəki səylərinin birləşdirilməsi, ziyanlı kontentlərə qarşı mübarizənin gücləndirilməsi məsələləri geniş müzakirə olunacaqdır.

Virtual məkanda uşaq hüquqlarının qorunması, onlara lazımi imkanların yaradılması ilə bağlı qlobal problemlər bütün dünya dövlətləri kimi, Azərbaycanda da qarşıda duran vacib məsələlərdəndir. İnformasiya-kommunikasiya texnologiyaları, xüsusən də, əqli və fiziki imkanları məhdud olan uşaqların təhsilinin səmərəli təşkilində vacib rol oynaya bilər. Bu məqsədlə körpələr evlərində, internat məktəblərində, pansionatlarda müxtəlif islah-təhsil texnologiyaları və proqramlarından istifadə etmək mümkündür. "İnkluziv təhsil" proqramı da məhz bu kateqoriyadan olan uşaqlar üçün nəzərdə tutulmaqla, onların təlim-tərbiyəsində mühüm rol oynayır. Bu proqram xəstəliyi olan uşaqların sağlam uşaqlarla eyni mühitə daxil olmasına və təlim-tərbiyəsinə xidmət edir. Belə bir mühiti praktik olaraq yalnız virtual məkanda, distant təhsil texnologiyalarından istifadə yolu ilə formalaşdırmaq mümkündür.

Hazırda dünya ölkələrində autizm xəstəliyinə tutularaq ətraf aləmdən təcrid olunan, daxili aləminə qapılaraq psixoloji sarsıntı keçirən uşaqların sayı həddən artıq çoxdur. Statistika göstərir ki, təxminən 1000 nəfər uşaqdan biri autizm xəstəliyindən əziyyət çəkir. Belə uşaqları normal həyata qovuşdurmaq, cəmiyyətlə normal ünsiyyətini təmin etmək üçün virtual məkanın imkanlarından istifadə edilməlidir.

Digər tərəfdən, fiziki və əqli cəhətdən sağlam uşaqların İnternetdən istifadəsi də mövcud normalar əsas tutaraq müəyyən dərəcədə məhdudlaşdırılmalı, virtual məkana çıxış imkanı yalnız onların sağlam mənəvi aləminin, dünyagörüşünün formalaşmasına, yüksək keyfiyyətli təhsil almasına, innovasion yenilikləri mənimsəməsinə xidmət etməlidir. Uşaqların virtual məkanın imkanlarından məqsədyönlü şəkildə yararlanmasını təmin etmək məqsədilə həyata keçirilən mühüm addımlardan biri də yay tətilləri dövründə İKT təmayüllü uşaq istirahət düşərgələrinin, başqa sözlə, İnternet-düşərgələrin yaradılması ola bilər. Keçmiş sovetlər birliyi dövründə uşaqlar "Artek", "Orlyonok" və digər məşhur pioner düşərgələrinə göndərilir, orada həm istirahət edir, həm də aldıqları bilik və vərdişləri təkmilləşdirirdi-

lər. O dövrün ideologiyasını birtərəfə qoyaraq, bu mütərəqqi ənənənin respublika hüdudlarında bərpası yay aylarında uşaqların normal mühitdə istirahət etməsi ilə yanaşı, virtual məkanda səmərəli işləmək bacarığına yiyələnməsi baxımından da məqsədəuyğundur. Fikrimizcə, belə düşərgələr təşkil edilərsə, stimullaşdırıcı addım kimi, yaxşı oxuyan, təlim-tərbiyədə fərqlənən şagirdlərin dövlət hesabına həmin düşərgələrə göndərilməsi məqsədəuyğun olardı. Bu, uşaq turizminin inkişafı baxımından da faydalı ola bilər. İnternet-düşərgələrin yaradılmasında dövlətlə yanaşı, iş adamları da maraqlı olmalı, respublikanın əlverişli turizm imkanlarından səmərəli şəkildə yararlanmalıdırlar.

İnternet-düşərgələr uşaqların şüur səviyyəsinin, dünyagörüşünün formalaşmasında, qabaqcıl biliklərə yiyələnməsində, informasiya cəmiyyətinin fəal üzvünə çevrilməsində, virtual dünyanın reallıqlarını obyektiv dərk etməsində vacib rol oynaya bilər. Bakıda və Azərbaycanın füsunkar təbiətə malik bölgələrində İnternet-düşərgələrin yaradılması istiqamətində konkret addımlar atmağın vaxtı çatmışdır. Uşaqlar üçün innovativ, kreativ turizm mühitinin formalaşdırılması, eyni zamanda, ölkənin inkişafının hazırkı mərhələsindən irəli gələn obyektiv zərurətdir.

**Milli uşaq portallarına ciddi ehtiyac var**

Uşaq və yeniyetmələrin İnternetdən istifadə edərək virtual məkanın dərinliklərinə "baş vurması" müsbət cəhətləri ilə yanaşı, bəzən onların normal təlim-tərbiyəsinə, təhsilinə, istirahətinə problemlər də yaradır. Bir vaxtlar uşaqların kompüter texnologiyalarına meyllənməsindən məmnunluq hissi keçirən valideynlər indi onların İnternet-klublarda saatlarla vaxt keçirməsindən, kompüter asılılığına düşməsindən haqlı olaraq narazılıq edirlər.

Müşahidələr göstərir ki, xüsusən də, iri şəhərlərdə yaşayan uşaqlar əyləncə və digər məqsədlərlə İnternet klublarda həddən çox vaxt keçirir, onların təhsili və dünyagörüşü baxımından məqsədəuyğun olmayan saytlara daxil olur, nəticədə dərs tapşırıqlarını yerinə yetirməyə vaxt tapmırlar. Kompüter qarşısında uzun-uzadı səmərəsiz vaxt keçirmək onların psixikasına, sağlamlığına, tərbiyəsinə mənfi təsir göstərməklə yanaşı, İnternet asılılığına gətirib çıxarır.

Məsələnin problemli tərəfi həm də bundadır ki, virtual məkanda saatlarla vaxt keçirən uşaq və yeniyetmə internetdə ana dilində ona faydalı olan informasiya resurslarını, məlumatları əldə edə bilmir. Müqayisə üçün təsəvvür edək ki, hər bir evdə televiziya var, amma yerli televiziya kanalını "tutmur". Bununla yanaşı, peyk anteni vasitəsi ilə digər ölkələrə məxsus kanalları izləmək mümkündür. Zaman keçdikcə bu televiziya tamaşaçısında hansı dünyagörüşünün formalaşacağını proqnozlaşdırmaq heç də çətin deyildir. Ciddi əhəmiyyət kəsb edən bu problem həm də mövcud vəziyyətdə azyaşlı İnternet istifadəçilərinə aiddir. İnternet mühitində mövcud olan müvafiq situasiya da son nəticədə onların lüzumsuz saytlara daxil olaraq mənəviyyatlarına mənfi təsir göstərən informasiyalara meyllənməsinə gətirib çıxarır. Respublikada son illərdə informasiya cəmiyyətinin çox yüksək sürətlə qurulması, İKT-nin inkişafı, İnternetin geniş yayılması üçün məqsədyönlü və ardıcıl tədbirlərin keçirilməsinə rəğmən, ana dilində fəaliyyət göstərən uşaq portalları hələ də yox dərəcəsindədir. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı tədbirlər planında respublikamızda ana dilində ilk uşaq portalının yaradılması nəzərdə tutulmuşdur. Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərini, adət-ənənələrini, tarixini, mədəniyyətini dolğun şəkildə özündə ehtiva edən portalın yaradılması sabahın gəncliyinin bugündən sağlam ruhda tərbiyə olunması baxımından vacibdir.

Azərbaycanın uşaq folklorunun zəngin janr strukturu uşaqların dünyagörüşünün, mənəviyyatının saf və ülvi təməl üzərində formalaşmasına əsaslı təsir göstərən nümunələrlə zəngindir. Uşaqların yaradıcı potensialının aşkarlanması, milli-mənəvi ideallara bağlılığı baxımından tapmaca, rəvayət, nağıl, əfsanə, bayatı, layla və digər folklor janrlarından istifadə son dərəcə əhəmiyyətlidir. Bu folklor nümunələrinin uşaqlar üçün nəzərdə tutulmuş portalda yerləşdirilməsi onların təlim-tərbiyəsində mühüm rol oynayacaqdır.

Unutmamalıyıq ki, virtual məkanda uşaqlara lazım olan kontenti yaratmadan onların mənəviyyatına və dünyagörüşünə, sağlamlığına zərər vuran destruktiv informasiyalara meyllənməsinin qarşısını almaq çox çətindir. Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlət olaraq İnternet və virtual məkan üzərində senzuranı və digər məhdudlaşdırıcı tədbirləri qəbul etmir. Bununla belə, uşaqların İnternet-klublarda, İnternet-kafelərdə istənilən veb-sayta



daxil olmasına heç bir məhdudiyyətin qoyulmaması son dərəcə təhlükəli haldır. Virtual məkan istənilən terror-təxribat qrupları, mütəşəkkil cinayətkarlar, separatçı qüvvələr, dini sekta və icmalar üçün açıqdır. Uşaqların bu və ya digər saytlara daxil olması belə cinayətkar ünsürlərin onlarla ünsiyyətə girməsi hallarını qətiyyən istisna etmir. Ev şəraitində, məktəblərdə valideyn və müəllimlərin İnternetə maraq göstərən uşaqlara nəzarət imkanı olsa da, İnternet-klublarda onlar tamamilə diqqətdən kənarda qalırlar. Bu baxımdan, İnternet-klublarda müəyyən süzgəclərdən, məhdudlaşdırıcı texnoloji vasitələrdən istifadə olunması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi son dərəcə vacibdir. Lakin belə tədbirlərdən əvvəl, ana dilində uşaq saytlarının sayının artmasına, uşaqlar üçün maraqlı informasiya dünyasının yaradılmasına çalışmalıyıq. Qeyri-hökumət təşkilatları, elmi qurumlar bu sahədə təşəbbüskarlığı artırmalı, uşaq saytlarının yaradılması ilə bağlı layihələr həyata keçirməlidirlər.

**"İnternet-klub"larda vəziyyət ürəkaçan deyil**

Hazırda Azərbaycanda fəaliyyət göstərən İnternet-klubların sayı 1000-i ötüb və İKT-nin inkişafına təkan verən belə obyektlərin sayının getdikcə artması özü müsbət haldır. İnternet-klublar ictimai yerlərdə insanların kütləvi olaraq qlobal şəbəkəyə çıxışını təmin etməklə, ölkədə rəqəmsal fərqi qismən aradan qaldırır, informasiya cəmiyyəti quruculuğuna mühüm töhfə verir. Azərbaycanda İKT sahəsində işləmək, zəruri informasiyaları operativ şəkildə əldə etmək vərdişlərinin aşılanması baxımından İnternet-klubların fəaliyyətinə ciddi ehtiyac var. Problemli məqam bundadır ki, ölkədə fəaliyyət göstərən İnternet-klubların, İnternet-kafelərin əksəriyyətinin iş şəraiti və rejimi müasir tələblərə cavab vermir. İnternet-klublar bəzi hallarda binaların zirzəmilərində - rütubətli, antisanitariya şəraitində fəaliyyət göstərir, sanitar-gigiyenik normalar gözlənilmir. Yararsız hesab olunan yerlərdə fəaliyyət göstərən İnternet-klublar darısqallığı, havasızlığı, natəmizliyi ilə uşaqların təkcə sağlamlığına deyil, mənəviyyatına, psixologiyasına da mənfi təsir göstərir.

Belə İnternet-klublara toplaşan və saatlarla vaxt keçirən uşaqların nəzarətsizlikdən təsir altına düşməsi, zərərli vərdişlərə aludə olması, müxtəlif vebresurslara çıxışı ilə bağlı heç bir məhdudiyyətin olmaması ciddi fəsadlara, problemlərə gətirib çıxarır. Belə obyektlərin fasiləsiz iş rejimində fəaliyyət göstərməsi bəzən uşaq və yeniyetmələrin gecə saatlarını İnternet-klublarda keçirməsinə gətirib çıxarır.

Bu gün respublikada İnternet-klublardakı vəziyyət ürəkaçan olmadığına görə bu sahədə monitorinqlərin aparılması, ümumiyyətlə, bu sahəyə nəzarətin gücləndirilməsi son dərəcə vacibdir. Normal tələblərə cavab verməyən, uşaqların sağlamlığına, mənəviyyatına zərər vuran, "süzgəclər"dən istifadə etməyən İnternet-klublara qarşı hüquqi müstəvidə ölçülər götürülməlidir. İnkişaf etmiş ölkələrdə uşaqların İnternet-klublardan istifadəsi ilə bağlı çox ciddi hüquqi mexanizmlər mövcuddur. Azərbaycanda da layiqli gəncliyin yetişdirilməsi baxımından bu təcrübədən istifadə olunmalıdır. Uşaqların İnternetdən istifadəsi ilə bağlı müəyyən normalar müəyyənləşdirilməli, onların virtual məkana çıxışı konkret prosedurlarla məhdudlaşdırılmalıdır. Ümumiyyətlə, bu sahədə mövcud nöqsanları aradan qaldırmaq, yalnız normal iş şəraitinə, sağlam mühitə malik xüsusi aparat-proqram vasitələrilə təchiz olunmuş İnternet-klubların yaradılmasına çalışmaq lazımdır.

İnformasiya cəmiyyətində uşaq hüquqlarının qorunması hər bir dövlətdən bu sahədə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini, qanunvericiliyin davamlı olaraq təkmilləşdirilməsini tələb edir. Müşahidələr göstərir ki, virtual məkan uşaq hüquqlarının qorunmasında, onların dünyagörüşünün, mənəviyyatının formalaşmasında müsbət cəhətləri ilə yanaşı, müəyyən təhdidlər də doğurur. Transmilli səciyyə daşıyan bu təhdidlərə qarşı mübarizə aparan Azərbaycan dövləti uşaqların İnternetin geniş imkanlarından məqsədyönlü, düzgün, səmərəli istifadəsi yönümündə genişmiqyaslı tədbirlər həyata keçirir. İnanırıq ki, "Uşaq ili" çərçivəsində reallaşacaq çoxşaxəli tədbirlər əlavə imkanlar açaraq cəmiyyətin potensialını bu sahədə səfərbər edəcək, uşaqların hüquq və azadlıqlarının etibarlı təminatı sisteminin formalaşmasına kömək göstərəcəkdir.

● **Rasim ƏLİQULİYEV,**
***AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor***